# Zalım dövlətdə hansısa bir peşədə işləmək

## Zalım dövlətdə hansısa bir peşədə işləmək

**Sual 1357:** **Qeyri-islami hökumətdə insan üzərinə düşən vəzifəni yerinə yetirə bilərmi?**

**Cavab: Bu, həmin vəzifənin öz-özlüyündə icazəli olmasına bağlıdır.**

**Sual 1358:** **Bir şəxs ərəb ölkələrinin birində yol polisi idarəsində işləyir. Onun vəzifəsi yol hərəkət qaydalarını pozan şəxslərin dosyesini imzalamaqdır və beləliklə, onlar məsuliyyətə cəlb olunaraq həbs olunurlar. Bu şəxs qanun pozuntusuna yol verən şəxslərin dosyesini imzaladıqda, onlar həbs olunurlar. O, bu işdə işləyə bilərmi? İşinin müqabilində dövlətdən aldığı əmək haqqının hökmü nədir?**

**Cavab: İctimaiyyətdə nizam-intizamın yaradılması məqsədilə qoyulan qanun-qaydalara riayət etmək hər bir halda vacibdir, baxmayaraq ki, bu qanun-qaydalar qeyri-islami dövlət tərəfindən qoyulmuşdur. Halal işin müqabilində əmək haqqı almağın maneəsi yoxdur.**

**Sual 1359:** **Müsəlman bir şəxs Amerika və ya Kanada vətəndaşlığını aldıqdan sonra oranın hərbi və ya polis qüvvələrində işləyə bilərmi? Yaxud İcra Hakimiyyəti və bu kimi dövlət idarələrində işləyə bilərmi?**

**Cavab: Əgər bu iş fəsadla nəticələnməzsə, yaxud haram işin yerinə yetirilməsi və ya vacib işin tərk edilməsi ilə yanaşı olmazsa, maneəsi yoxdur.**

**Sual 1360:** **Zalım dövlət başçısı tərəfindən təyin edilən hakimin (qazinin) mühakimə aparmaq və hökm çıxarmağa şəri səlahiyyəti çatırmı və ona itaət etmək vacibdirmi?**

**Cavab: Camiuş-şərait müctəhid olmayan bir şəxsin – başqa sözlə, hakim təyin edən səlahiyyətli şəxs tərəfindən təyin edilməyən bir şəxsin - camaatın mübahisəli məsələləri barəsində mühakimə aparmasına və hökm çıxarmasına icazə verilmir. Zərurət halı istisna olmaqla, camaatın ona müraciət etməsinə də icazə verilmir və onun çıxardığı hökm keçərli deyildir.**